1_Layout 1 13.09.2023 16:17 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 18 (657)

15 sentyabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# TÜRK HƏMRƏYLİYİNƏ AZƏRBAYCAN TÖHFƏSİ

## Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin möhkəmləndirilməsi dövlətimizin xarici siyasətinin əsas prioritetidir

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Türk həmrəyliyinə Azərbaycan töhfəsi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



Türk dövlətlərinin birliyində özünəməxsus və aparıcı rolu olan Azərbaycan həmrəyliyin daha da güclənməsi və əbədi olması üçün fəal şəkildə əməli işlər həyata keçirir. Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində bu gün türk birliyi ən yüksək əməkdaşlıq zirvəsinə qalxıb və bütün sahələr üzrə yüksələn xətlə inkişaf edir. Sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçılarını qəbul edən zaman çıxışında Prezident İlham Əliyev vurğuladı ki, "Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan".

Dövlət başçısı onu da əlavə etdi ki, ölkəmiz bütün dövrlərdə TDT-nin güclənməsinə öz dəstəyini əsirgəməmişdir və Azərbaycanın xarici siyasət prioritetləri arasında bu təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur: "Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda biz bunu əməli işlərdə də göstərmişik".

### Şimali Kiprin bayrağı Azərbaycanda hər zaman dalğalanacaq

Bir məqama diqqət çəkək ki, Bakıda keçirilən sözügedən tədbirdə iştirak edən türk dövlətlərinin nazirləri arasında ilk dəfə olaraq Şimali Kipr Türk Respublikasının (ŞKTR) Daxili işlər naziri Dursun Oğuz da iştirak edib.

Prezident İlham Əliyev bu əlamətdar hadisəni məxsusi qeyd edərək qürurla söylədi ki, bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istədiyini dilə gətirən İlham Əliyev onu da dedi ki, nazir burada müşahidəçi kimi, amma eyni zamanda öz bayrağı ilə təmsil olunur: "Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır".

Ölkə Prezidentinin vurğuladığı bu qürurverici nüansın özü də Azərbaycanın türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olduğunu nümayiş etdirir. Haqq-ədalət yolunda bərabər addımladığını göstərir.

Prezident İlham Əliyevin Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycanda keçiriləcək tədbirlərdə dalğalanacağını bəyan etməsindən sonra bu ölkənin Prezidenti Ersin Tatar Azərbaycan Prezidentinə təşəkkür edib.

ŞKTR Prezidentinin saytında yer alan açıqlamada Ersin Tatar bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycandakı tədbirlərdə dalğalanacağını açıqlamasından məmnuniyyət duyub: "Aralıq dənizinin şərqində bir türk dövləti olan ŞKTR varlığını bir millət, üç dövlət anlayışı ilə davam etdirir. Azərbaycan ilə aramızdakı könül birliyinin, dəyərlərin və eyni millətin ayrılmaz hissələri olaraq münasibətlərimizin davamlı inkişafı ən böyük arzumdur".

### Türk dünyasının zəfəri

Milli köklərimizlə, ortaq dəyərlərimizlə, dil, din birliyimizlə sıx bağlı olduğumuz türk xalqlarının, dövlətlərinin həmrəyliyini həm də zamanın çağırışı kimi xarakterizə etsək, heç də yanılmarıq.

Azərbaycan xalqı olaraq güclü türk birliyinin əhəmiyyətini hələ Vətən müharibəsi zamanı əyani şəkildə gördük. O zaman qardaş Türkiyənin verdiyi siyasi və mənəvi dəstək Qarabağda Şuşa zəfərini çalmağımıza böyük kömək oldu. Eləcə də digər qardaş türk dövlətləri Azərbaycan xalqının, dövlətinin yanında olduğunu nümayiş etdirdi. Bütün türk dünyası parlaq zəfərimizi öz qələbəsi saydı, bizimlə birgə qürurlandı.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilərək bu yaxınlarda açılışı həyata keçirilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb də bu dəstəyin bariz nümunələrindən biridir.

Gerçəklikdir ki, Azərbaycanın Vətən müharibəsi zamanı işğalçı Ermənistan üzərində qələbəsi tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyasını da bərpa edib, türk birliyinin bir-biri ilə əlaqələrini daha da intensivləşdirəcək yeni yolların açılmasına rəvac verib.

Qazandığı zəfərə və türk dünyasının birgəliyinə verdiyi bu töhfəsinə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2022-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə görüşü zamanı Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görülüb.

### Tezliklə Qəhrəmanmaraşda Azərbaycan şəhərinin inşasına başlanılacaq

Əlaqələri və əməkdaşlığı daha da güclənən Türk Dövlətləri Təşkilatına üzv dövlətlər dünyada baş verən bütün qlobal siyasi proseslərə, eləcə də təbii böhranlara qarşı birgə mübarizə aparırlar. 2023-cü il fevralın 6-da qardaş Türkiyədə baş verən ardıcıl iki dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində də qardaş ölkələr səylərini birləşdirdilər. Azərbaycan da maddi-mənəvi dəstəyi ilə zəlzələnin baş verdiyi gündən etibarən qardaş Türkiyənin yanında oldu.

Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Türkiyənin paytaxtı Ankarada, əslində Şuşada keçirilməsi planlaşdırılan, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü keçirildi. Bu Zirvə görüşü zamanı Türkiyədə baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlər ən yüksək səviyyədə müzakirə edildi.

Sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçılarını qəbul edən zaman Prezident İlham Əliyev bu məsələyə toxunaraq, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayının kəskin artdığını söylədi. Dövlət başçısı qardaş Türkiyədə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq və bir daha başsağlığı verərək söylədi ki, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir: "Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq".

### TDT-nin dünyadakı mövqeyi və rolu daha da artacaq

Göründüyü kimi, bütün sahələr üzrə türk dünyasının birliyi getdikcə güclənir və Azərbaycanın bu həmrəyliyə töhfələri böyükdür. Bu isə dünyada baş verən istər qlobal siyasi, iqtisadi, sosial problemlərə, istərsə də təbii böhranlara qarşı türkün sarsılmaz gücü ilə çıxmağımıza rəvac verir. Buna görə də bütün üzv dövlətlər Türk Dövlətləri Təşkilatının dünyada nüfuzunun qat-qat artması üçün hər zaman fəal dəstək göstərməlidirlər. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun... Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır".

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ KEÇİRİLİB

Sentyabrın 7-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Daxili işlər naziri Ali Yerlikayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Azərbaycanda mövcud olan sabitliyin əhəmiyyətini xüsusi qeyd edən nazir bildirib ki, asayişin və təhlükəsizliyin etibarlı qorunması vətəndaşlarımızın, xarici investorların, o cümlədən türkiyəli iş adamlarının ölkəmizin iqtisadiyyatına sərmayə qoymalarına və əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.



Nazir Azərbaycan Polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də nəzərə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb və cənab Ali Yerlikayanın şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

Nazir, cənab Ali Yerlikayanın Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə də müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin Daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib.



O, həmçinin iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə olunub.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.09.2023 16:19 Page 1



# YUBİLYAR VETERANLAR TƏBRİK EDİLİB

Sentyabrın 1-də Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov qoşunların veteranları - istefada olan polkovnik-leytenantlar Murad Mürsəlovu və Ələddin İsmayılovu yubileyləri münasibətilə qəbul edib. M.Mürsəlovu 75 və Ə.İsmayılovu 70 illiyi ilə əlaqədar Daxili Qoşunların komandanlığı adından təbrik edən general-mayor İ.Muradov onların hərbi xidmətdə şərəfli yol keçdiklərini, öz funksional vəzifələrini peşəkarlıqla yerinə yetirdiklərini, müharibə sınaqlarını yaşadıqlarını vurğulayıb. O, veteranların fərqli xidmət sahələrində fəaliyyətinə toxunaraq, hər birinin zəngin təcrübə topladığını, peşə nailiyyətləri ilə fərqləndiyini, qoşunların inkişafına öz töhfəsini verdiyini, silahdaşlarının hörmətini qazandığını deyib.



Komandan müavini M.Mürsəlovun hərbi hissələrdə və Baş İdarədə təyin edildiyi məsul vəzifələrdə ona göstərilən etimadı doğrultduğunu, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi üçün öz bilik və bacarığını əsirgəmədiyini, eləcə də ehtiyata buraxıldıqdan sonra uzun illər qoşunların veteran təşkilatına uğurla rəhbərlik etdiyini diqqətə çatdırıb. Ə.İsmayılovun isə hərbi-həkim olaraq hərbi qulluqçularımızın sağlamlığı keşiyində, tibb xidmətinin fəaliyyətinin təşkilində əsl fədakarlıq göstərdiyini bildirib.

Yubilyar veteranlar diqqət və qayğıya görə Daxili Qoşunların komandanlığına dərin minnətdarlıqlarını ifadə ediblər. Onlar hərbi qulluqçularımızın ləyaqətli xidmət və döyüş yolunun, vətənpərvərlik nümunələrinin haqlı qürur hissi doğurduğunu, cəmiyyətdə qoşunların yüksək nüfuza malik olduğunu söyləyiblər.

General-mayor İ.Muradov yubilyarlara gül dəstəsi və təbriknamə təqdim edərək, cansağlığı, ailə xoşbəxtliyi, işlərində uğurlar arzulayıb. Sonda xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

# BAKININ ERMƏNİ-BOLŞEVİK İŞĞALINDAN AZAD EDİLMƏSİNDƏN 105 İL ÖTÜR

15 sentyabr 1918-ci il. Azərbaycan tarixinə ən şərəfli və qürurverici günlərdən biri kimi yazılmış məhz bu tarixdə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakını erməni-bolşevik işğalından azad edib. 105 il əvvəl baş verən bu hadisə nəticəsində həm ölkəmizin müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə olan halda, Azərbaycanın dövlət müstəqilliyini təsəvvür etmək çox çətin görünürdü. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin isə ərazi bütövlüyünü təmin etmək imkanları yetərincə deyildi. Belə bir şəraitdə özünün çox ağır durumuna rəğmən Osmanlı Türkiyəsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərdi. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə və müxtəlif yollarla təzyiqlər göstərməsinə baxmayaraq, qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu qarşısına qoyduğu missiyanı uğurla başa çatdıraraq, Bakını işğalçılardan təmizləməklə Azərbaycan dövlətçiliyinə qardaş töhfələrini verdi, Azərbaycan xalqını darda qoymadı.



Tarix elmləri doktoru, professor Anar İsgəndərovun bu şanlı hadisə ilə əlaqədar yazdığı və tarixi faktlara əsaslanan məqaləsində maraqlı məlumatlar verilib: "...Sentyabrın 15-də döyüşlər səhər saat 05:30-da başlandı. Bütün qüvvələrin əsas vəzifəsi kimi Bakının ələ keçirilməsi müəyyənləşdirildi. Səhər saatlarında bütün istiqamətlərdə başlanan hücum öz uğurlu nəticəsini verdi. Qafqaz İslam Ordusunun qarşısının alınmasının qeyri-mümkünlüyünü görən "Sentrokaspi" rəhbərliyi danışıqlara başlamağı qərara aldı. Saat 10:30-da "Sentrokaspi" ordusunun qərb cəbhəsinin komandanı üzərində ağ bayraq asılan avtomobillə 5-ci diviziyanın qərargahına yaxınlaşdı.

Bakı azad edilərkən 17 erməni, 9 rus, 10 gürcü zabiti, 1151 erməni, 383 rus, 4 ingilis və 113 nəfər müxtəlif millətdən olan əsgər əsir götürüldü.

Təkcə avqustun əvvəllərindən sentyabrın 15-dək Bakı uğrunda gedən döyüşlərdə 5-ci Qafqaz diviziyası 1130-dək şəhid vermişdir. Ümumiyyətlə, Qafqaz İslam Ordusu iyunun ortalarından sentyabrın 15-dək Azərbaycanın azadlığı uğrunda döyüşlərdə dörd mindən çox əsgər və zabit şəhid vermişdi. Bu döyüşlərdə Azərbaycan könüllü dəstələrinin də itkiləri kifayət qədər idi".

Möhtəşəm və tarixi qələbədən iki gün sonra, sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürüldü.

Aradan uzun illər keçməsinə baxmayaraq, Türkiyə ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayacaq, Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.

**Mətbuat xidməti**

# UÇUŞLARIN İDARƏ OLUNMASINDA START KOMANDA MƏNTƏQƏSİ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

“Qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə icra olunmasında DİN-in Daxili Qoşunlarının Helikopter Eskadrilyasının rolu əvəzolunmazdır.

Xüsusi həmlə, paraşüt-desant və xilasetmə qrupları ilə birgə fəaliyyətlər, havadan axtarış-xilasetmə işlərinin aparılması, şəxsi heyətin havadan dəstəklənməsi, yaralı və xəsarət alanların təxliyyəsi, o cümlədən zərurət olduqda respublikamızın müdafiəsində iştirak edilməsi Helikopter Eskadrilyasının vəzifələridir”.



Bu fikirləri səsləndirən 17077 saylı hərbi hissənin komandiri polkovnik Hüseyn İsmayılov bildirdi ki, sadalananlar Helikopter Eskadrilyasının ümumi funksional vəzifələridir. Bundan başqa, hərbi hissənin gündəlik olaraq yerinə yetirdiyi xidməti tapşırıqları da var ki, bunlardan biri də təlim uçuşlarıdır. Hərbi hissə komandiri istər xüsusi tapşırıqlar, istərsə də təlim uçuşları zamanı ən vacib məqamlardan birinin start komanda məntəqəsinin fəaliyyətinin olduğunu vurğuladı.

Uçuşlar zamanı start komanda məntəqəsində 3 qrup fəaliyyət göstərir: uçuşlara rəhbərlik qrupu, aviasiya-meteoroloji və dispetçer xidmətləri. Uçuşlara rəhbərlik qrupunun rəisi kapitan Ayaz Mikayılov uçuşlar zamanı uçuşlarda iştirak edən bütün şəxsi heyətin rəisi hesab olunur. O, uçuşdan bir gün əvvəl tapşırıqlar alır. Uçuşların yerinə yetirilməsi üçün plan-cədvəlin tərtib olunmasında yaxından iştirak edir, eyni zamanda uçuş heyətilə məşqlərin keçirilməsinə şəxsən nəzarət edir. Sonra uçuş günü aidiyyəti qurumlardan icazə və uçuş şərtləri alır. Ardınca uçuşların idarə edilməsinə başlanılır. Ekipaj borta oturur, mühərriklərin işə salınmasına icazə istəyir. Qrup rəhbəri təyin olunmuş vaxtda helikopterin qalxmasına icazə verir.

Start komanda məntəqəsinin ikinci üzvü aviasiya-meteoroloji xidmətində sinoptik-meteoroloq baş leytenant Allahverdi Hüseynli meteoroloji və ornitoloji vəziyyətin təhlilini aparır, uçuş müddətində hava proqnozunu tərtib edir. Həmçinin uçuş-enmə zolağında helikopterin enməsi üçün meteoroloji vəziyyəti sistematik olaraq dəqiqləşdirir. Qrupun digər üzvü, qərargahda baş dispetçer baş çavuş Allahverdi Musazadə isə uçuşların məhdudlaşdırılması, hava şəraitinin dəyişməsi barədə məruzə edir.

Bir sözlə, uçuşların idarə olunmasını müvəffəqiyyətlə həyata keçirən start komanda məntəqəsi üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

**kapitan Nigar Ağayeva**

# MİNAATAN BATAREYA VƏZİFƏLƏRİNİ MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİR

16073 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın vəzifələri döyüş əməliyyatları zamanı motoatıcı bölmələrin düşmən üzərinə asanlıqla irəliləməsi üçün atəş dəstəyi ilə təmin etməkdir. Düşmənin komanda-düşərgə məntəqəsini, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək də batareyanın üzərinə düşən tapşırıqlardandır. Eyni zamanda, düşmən mövqelərinin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.



Minaatan batareyanın komandiri baş leytenant İbrahim Quliyev sadalanan vəzifələrin yerinə yetirilməsi baxımından şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksək olmasının vacibliyini söylədi. O, hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışdı. Bildirdi ki, şəxsi heyət mütəmadi olaraq praktiki məşğələlərə cəlb olunur. Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində “batareya hücumda” və “batareya müdafiədə” mövzularında təlimlər keçirilir, həmçinin minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydaları öyrədilir.

Batareya komandiri şəxsi heyətin təlim və məşğələlərə məsuliyyətlə yanaşdığını, eləcə də hərbi intizama ciddi riayət etdiyini xüsusi olaraq vurğuladı.



Baş leytenant İ.Quliyev funksional vəzifələrinin öhdəsindən layiqincə gələn batareya komandirinin müavini-batareyanın baş zabiti baş leytenant Səbuhi Əhmədzadənin və batareya komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Əlibəy Hüseynovun məşğələlərin keyfiyyətli şəkildə təşkil olunmasında, şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının yüksəldilməsi sahəsindəki fəaliyyətlərini diqqətə çatdırdı, onların tabeliklərindəki hərbi qulluqçulara nümunə olduqlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ MÖHKƏM HƏRBİ İNTİZAMA NAİL OLAN BÖLÜK

16075 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri kapitan Elmir Mirzəyev bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur.



Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən kapitan E.Mirzəyev digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Zaur Mehtiyevin yaxından iştirak etdiyini deyən kapitan E.Mirzəyev onun məsuliyyətli zabit olduğunu bildirdi.

Bölük komandiri onu da əlavə etdi ki, şəxsi heyətlə keçirilən məşğələlərin nəticəsi olaraq 2023-cü ilin I yarımilinin yekunlarına görə komendant bölüyü hərbi hissənin bölmələri arasında qabaqcıl yerə layiq görülüb.

Bölük komandiri nümunəvi xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan leytenant Nurlan Bayramzadə, gizir Nicat Musayev, çavuş Ramazan Hüseynov, əsgərlər Kənan Nağıyev, Zabil Mədədov və Azər Məmmədovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# MÜALİCƏ-PROFİLAKTİKA TƏDBİRLƏRİ UĞURLA HƏYATA KEÇİRİLİR

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir. 17074 saylı hərbi hissənin tibb xidməti də vəzifə borcuna məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Tibb məntəqəsinin həkim-stomatoloqu tibb xidməti kapitanı Zaira Sodiyeva məlumat verdi ki, xidmət gündəlik olaraq öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir. İclas zamanı gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir.

Tibb xidməti kapitanı Z.Sodiyeva söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Sanitar təlimatçı-dezinfektor baş çavuş Məhəmməd Batarayev



tərəfindən əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə ambulator müalicəyə göndərilir.

Bundan əlavə, xəsarət alanlara, təxirəsalınmaz xəstələrə həkim



nəzarəti altında tibbi yardım edilir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlığın düzgün istifadəsinə və saz vəziyyətdə olmasına, onların sterilizasiyasına daim diqqət yetirilir, xidməti sənədlərin vaxtlı-vaxtında və düzgün icrası həyata keçirilir. Bölmələr tibbi preparatlarla fasiləsiz olaraq təmin olunur.

**kapitan Xədicə Hacızadə**

Şəhidlərimiz

# CƏSUR OĞUL, QALİB DÖYÜŞÇÜ KİMİ ANILACAQ...

Müharibə ağrı-acıları bizim qan yaddaşımızdır. Xalqımızın taleyinə döyüş sınaqları yazılıb. Vətən torpağını qorumaq, ona sahib çıxmaq vəsiyyəti əcdadlarımızdan qalıb, nəsildən-nəslə ötürülərək müqəddəs məram olaraq aşılanıb. Düşmənimiz olan ermənilər isə özgə torpağına yiyələnərək özlərinə yaşayış məkanı əldə etmək ideologiyasının daşıyıcılarıdır. Onların ayaq basdıqları yerlər viran qoyulub, hətta dini məbədlər və məzarlar bu vəhşilikdən kənar qalmayıb. İşğalçılıq ermənilərin xislətidir, bu məqsədlərinə çatmaq üçün soyqırım törətməkdən belə çəkinməyiblər.

Hərbi zəfər qəhrəman xalqlara nəsib olur. Biz qalib olmağı bacaran oğullar yetişdirən  xalqın övladlarıyıq. 44 günlük Vətən müharibəsində bu oğullar minalanmış sahələri keçə bildilər, yüksəklikləri fəth etdilər, gecə-gündüz, atəş altında dayanmadan irəlilədilər, təcavüzkarlardan qisasımızı alaraq onlara divan tutdular, hətta qeyri-bərabər döyüşlərdə də işğalçıları vahiməyə saldılar və fərarilərə çevirdilər, düşməndən ələ keçirdikləri hərbi qənimətlərlə dünyanı heyrətləndirdilər.

Məğlubedilməz ordumuzun rəşadəti nəticəsində bu gün Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Suqovuşan, Talış, Hadrut və Şuşada üçrəngli bayrağımız ucalır, yağı tapdağından qurtulan yurdlarımız doğma nəfəslə isinir.

Vətən müharibəsində iştirak edərək şəhadət şərbətini içən hərbi qulluqçularımızdan biri də baş əsgər Həsənov Pərviz Fərmayıl oğludur. Şəhidin ailə üzvləri və silahdaşları onun ömür yolu haqqında məni ətraflı məlumatlandırdılar. Bununla yanaşı, bəzi rəsmi sənədlər və videomateriallarla tanış oldum.

Məqalə hazırlanarkən şəhidin anası Zərafşan Hüseynovanın vəfat etməsi xəbərini aldım və çox kədərləndim. Oğul itkisi onun kimi çoxlu sayda şəhid valideyninin sağlamlığına ağır zərbə vurub. Bir qisminin ürəyi bu acıya dözməyib.

Pərviz 1989-cu il dekabrın 8-də Samux rayonunun Poylu kəndində doğulub. Fərmayıl Həsənov və Zərafşan Hüseynovanın üç oğlundan biri, ailənin ortancıl övladı olan Pərvizin Ramil, Namaz adlı qardaşları var. Zəhmətkeş, adət-ənənələrimizə bağlı, həmkəndlilərinə xeyirxah münasibətilə seçilən ailədə böyüyüb. Atasının sözlərinə görə, Pərviz həm ailədə, həm də orta məktəbdə vətənpərvər ruhda tərbiyə olunub. Ailəcanlı, mehriban, qayğıkeş, yaxşılıq etməyə, kömək əlini uzatmağa can atan olması şəxsi keyfiyyətlərindən idi. İdmanla həvəslə məşğul olaraq ağırlıq çəki daşlarını qaldırıb, turnikdə dartınıb, fiziki hazırlığını daim diqqətdə saxlayıb.

Poylu kəndindəki şəhid Məcid Xəlilov adına tam orta məktəbdə təhsil alıb. Müəllimlərinə hörmətlə yanaşıb, məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edib. Məktəbli olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəslədiyini söyləyib.

2008-2010-cu illərdə Pərviz Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Ölkəmizin şimal sərhədinin keşiyində dayanıb. Sərhədçi olaraq hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Ehtiyata buraxıldıqdan sonra o, bir müddət mülki işlərdə çalışsa da, hərbi xidmətə qayıtmağı  düşünüb, bu barədə valideynlərinə də deyib. Nəhayət, qəti qərar verərək, hansı qoşun növündə xidmət etməsi ilə bağlı öz seçimini edib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandanlığı tərəfindən  Pərvizin müraciəti müsbət cavablandırılıb.



2013-cü ilin iyun ayının 29-dan etibarən Pərviz Daxili Qoşunların  sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 25033 saylı hərbi hissədə öncə ayrı yerləşən patrul taborunun xüsusi vasitələrin tətbiqi bölməsinin tuşlayıcı-operatoru, sonra isə xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun atıcısı və ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunun tuşlayıcısı vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə nümunəvi xidmətilə fərqlənib, komandanlığın etimadını doğruldub. Döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında əldə etdiyi nailiyyətlərə görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb, hərbçi şərəfini daim uca tutub. Xüsusi vasitələrin tətbiqi dəstəsində xidməti zamanı qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlməsi xüsusi təyinatlıların sıralarına seçilməsi üçün vacib rol oynayıb. Beləcə, xüsusi təyinatlı olmaq arzusuna qovuşub.

F.Həsənovun dediyinə görə, Pərviz evdə hərbi xidməti barədə çox danışmayıb. Söhbət düşəndə bildirib ki, hərbi xidmətə qəbul olunmaqla əlaqədar düzgün qərar verdiyinə əmindir, atdığı addım ürəyincədir. Komandirlərindən və hərbçi yoldaşlarından razılıqla danışıb. Həmişə səsləndirdiyi fikirlərində peşəsinə qəlbən bağlandığı sezilib.

2018-ci il fevralın 24-də Pərviz Şəfəq xanımla ailə qurub. Bu xoşbəxt ailədə qızı dünyaya gəlib, adını Səma qoyublar. Atalıq duyğusu onun həyat eşqini daha da alovlandırıb, ruh yüksəkliyini artırıb. Valideynlərinə olduğu kimi, öz ailəsinə də qayğısını əsirgəməyib. Ümumilikdə, ailə dəyərləri və ənənələri onun həyata baxışlarında mühüm məqamlar idi. Həmişə mənəvi dəstəklərini gördüyü doğmalarını sevindirməyə, onlarda xoş ovqat yaratmağa can atıb. Atasının 60 illik yubileyində illərlə topladığı şəxsi vəsaiti hesabına avtomobil hədiyyə etməsindən məmnunluq duyub.

Vətən müharibəsi ərəfəsində Pərviz məzuniyyətdə olub, həmin günlər əzizləri ilə həyatında sonuncu dəfə görüşüb. Vəziyyətin gərginləşməsi ilə əlaqədar məzuniyyəti yarımçıq qalıb.

25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun snayper yarımqrupunun komandiri gizir Tural Əliyev Vətən müharibəsi iştirakçısıdır. O, məlumat verdi ki, Pərvizlə 2013-cü ildən eyni hərbi hissədə və bölmələrdə xidmət edib. Silahdaşının bacarıqlı, intizamlı, iradəli, vətənsevər hərbi qulluqçu olduğunu diqqətə çatdırdı. Bildirdi ki, xüsusi təyinatlı qrupda Pərviz yaşça hamıdan böyük olduğundan yoldaşlarına öz təcrübəsindən irəli gələrək dəyərli məsləhətlər verib, onların xidmətdə və xidmətdənkənar üzləşdikləri çətinliklərə laqeyd olmayıb. Tural qeyd etdi ki, Pərviz təlimlərdə davamlı olaraq peşə məharətini nümayiş etdirib, komandirlərin öyrətdikləri hərbi biliklərə əzmlə yiyələnib. İctimai təhlükəsizliyin mühafizəsi və koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə xidmətə çıxıb, verilən tapşırıqların öhdəsindən layiqincə gəlib.

Yarımqrup komandirinin dediyinə görə, Vətən müharibəsi başladıqda öncə 16077 saylı hərbi hissəyə göndəriliblər. Orada həm döyüş əməliyyatlarında iştiraka hazırlıq görülüb, həm də Bərdə və Tərtər rayonlarında komendant postlarında xidmətə cəlb ediliblər. Oktyabrın 16-dan etibarən Füzuli rayonunda yerləşiblər. Həmin vaxt ön cəbhədə şiddətli döyüşlər davam edirdi, erməni işğalçıları məğlub olaraq geri çəkilirdilər. Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları ilə birlikdə xüsusi təyinatlılarımız göstərilən istiqamətdə qarşıya qoyulan döyüş tapşırıqlarının icrasına başlayıblar. Pərviz silahdaşları ilə birgə Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində və Şuşa şəhəri yaxınlığında döyüş yolu keçib. Bu istiqamətlərdə bəzi yaşayış məntəqələri və yüksəkliklərin işğaldan azad olunmasına öz töhfəsini verib.

Turalla yanaşı, Pərvizin digər döyüşçü yoldaşları:16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun yarımqrup komandiri baş çavuş Fuad Abışov və 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunun atıcısı çavuş İlqar Mehdiyev də şəhidin döyüş yolundan maraqlı epizodları danışdılar.

Füzuli rayonunda "Beton post" adlanan mövqe istiqamətində yerləşən dağıdılmış kəndin qəbiristanlığında düşmənin qurduğu postların ələ keçirilməsində Pərviz cəsurluq göstərib. Digər istiqamətlərdə də pulemyot köməkçisi kimi avtomat silahı ilə qətiyyətlə vuruşaraq işğalçıları məhv edib. Həm hücumda, həm də müdafiədə ön sıralarda olub, atəş dəstəyi ilə bəzi döyüşçüləri təhlükəli vəziyyətlərdən çıxarıb. Azad edilən ərazilərə düşmənin diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, nəzarətə götürülən şəhər və kəndlərdə gizlənmiş erməni hərbçilərinin axtarılması, onlara məxsus silah-sursatın qənimət götürülməsi üzrə tapşırıqları da cəsarətlə yerinə yetirib.



Noyabrın 5-də Şuşa-Xankəndi yolunun bağlanması və yolüstü sahələrdə pusqu qurulması əməliyyatı icra edilib. Pusquya düşən ermənilərin canlı qüvvəsi tələfata uğradılıb və bir neçə texnikası zərərsizləşdirilib. Noyabrın 6-da səhər vaxtı Şuşa-Xankəndi yolundakı yanacaqdoldurma məntəqəsi istiqamətində irəliləyiblər. Orada bir neçə saat döyüş gedib. Qeyd olunan tarixdə təxminən saat 18 radələrində Şuşa yaxınlığında mövqeləndikləri ərazi tanklardan və artilleriyadan şiddətli atəşə məruz qalıb. Bu zaman mərmi qəlpələrindən ağır yaralanan Pərviz şəhadətə ucalıb. Atəş nəticəsində bir neçə nəfər döyüşçü şəhid olub və yaralanıb.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 12 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Pərvizin döyüş meydanında baş-beyinin diffuz travması, hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu faktı öz əksini tapıb. Ancaq sənəddə 8 noyabr 2020-ci ildə şəhid olduğu yazılıb.

Noyabrın 11-də ailəsinə şəhid olduğu və nəşinin Füzuli rayonunda saxlanıldığı barədə məlumat verilib. Noyabrın 12-də nəşi evə gətirilib və Poylu kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş əsgər P.Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Xüsusi təyinatlının müharibədən əvvəl xidmət etdiyi 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunda xatirəsini əbədiləşdirən abidə inşa olunub. Poylu kəndindəki şəhidlər abidəsinə onun şəkli vurulub. Bu yurdun şəhadətə yüksələn iki sakinindən biri Pərvizdir. Sözügedən kəndin girəcəyindən Qarabağlı kəndinin girəcəyinədək olan küçəyə döyüşçünün adı verilib. Kənddə şəhidin şəkilləri əks olunan plakatlar da quraşdırılıb. Bakıdakı 28 saylı, Samux rayonundakı 2 saylı və Poylu kəndindəki tam orta məktəblərdə Pərvizin adını daşıyan siniflər var.

Şəhidin atası Poylu kəndində, həyat yoldaşı və qızı isə Gəncə şəhərində yaşayırlar. Atası poçt rəisidir, vəfat edən anası səhhəti ilə əlaqədar təqaüdçü idi. Həyat yoldaşı Gəncədəki 38 saylı uşaq bağçasında işləyir. Hər iki ailə Pərvizli günlərin xatirələri ilə yaşayır. Müharibə zamanı doğmaları narahat olmasın deyə döyüşlərə qatıldığını əvvəlcə söyləməyib. Oktyabrın 30-da atası ilə son telefon danışığında vuruşduğunu ilk dəfə etiraf edib və ailəsindən muğayat olması xahişini dilə gətirib.



Ailə üzvləri müharibə bitəndən sonra Pərvizin qalib döyüşçü kimi sağ-salamat geri qayıdacağına son anadək ümid bəsləyiblər.

Öz nəslinin yeganə şəhidi olan və el-obasını qürurlandıran Pərvizin xatirəsi heç vaxt unudulmayacaq. Qələbə şəhidlərindən biri kimi ona həsr olunan şeirdə belə misralar var:

**Sən şəhid olmusan, budur həqiqət,**
**Yerin  behişt olsun, məkanın cənnət.**
**Səmanı vermisən bizə əmanət,**
**Səndən yadigardır qoyduğun hər iz,**
**Pərviz, ay Pərviz!**

**Ötsə də zamanlar, ötsə də illər,**
**Səni yaşadacaq sevən könüllər.**
**Daim yad edəcək gələn nəsillər,**
**Unutmaz bu torpaq, unutmarıq biz,**
**Pərviz, ay Pərviz!**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİD HƏRBİ QULLUQÇULARIMIZIN XATİRƏLƏRİ YAD OLUNUB

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirəsinə  və onların ailə üzvlərinə dərin hörmət və ehtiram nümayiş etdirilir. Onların həyatı və şücaət, mərdlik, qəhrəmanlıqla zəngin xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələrinə hər zaman diqqət və qayğı göstərilir.

Xüsusilə, yaxınlaşmaqda olan 27 sentyabr - Anım Günü ilə əlaqədar olaraq Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən doğum günü olan şəhid hərbi qulluqçularımızın xatirələri yad olunur. Belə ki, sentyabr ayının 1-də 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin bölmə komandiri kapitan Rəşad Kərəmovun rəhbərliyi ilə bir qrup şəxsi heyət tərəfindən şəhid hərbi qulluqçumuz əsgər Vəliyev Fərid Güloğlan oğlunun məzarı ziyarət olunub və ailəsinə baş çəkilib.

Qeyd edək ki, əsgər F.Vəliyev 1993-cü ilin sentyabr ayının 1-də Beyləqan rayonunun Əhmədli kəndində anadan olub. 44 günlük Vətən müharibəsi zamanı ön cəbhənin müxtəlif istiqamətlərində gedən




döyüşlərdə düşmənə qarşı qətiyyətlə vuruşub. Noyabr ayının 8-də Şuşa istiqamətində qəhrəmancasına şəhadətə yüksəlib.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər F.Vəliyev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

*****

Sentyabr ayının 7-də isə 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun bir qrup hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Qurbanov Ruslan Üzeyir oğlunun məzarını ziyarət edib və ailəsinə baş çəkib. Qeyd edək ki, Ruslan 2013-cü ildən Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Həmin vaxtdan Vətən müharibəsinədək olan dövrdə qoşunların 17072 saylı hərbi hissəsində xidmət edib.




2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsinin ilk günündən Ruslan ön cəbhəyə göndərilərək düşmənə qarşı qətiyyətlə vuruşub. Onun zamanca qısa döyüş yolu Kəlbəcər rayonu istiqamətində, Murovdağ ərazisindən keçib. Ruslan Murovdağ uğrunda döyüşlərdə yenilməz iradəyə malik və qorxmaz hərbi qulluqçu kimi fərqlənib, son nəfəsinədək içdiyi hərbi anda sadiq qalıb. O, sentyabrın 28-də həmin istiqamətdə minaatan mərmisinin partlayışından ağır yaralanaraq şəhid olub. Şəhid hərbi qulluqçumuz Biləsuvar rayonunun Ağalıkənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş R.Qurbanov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 13.09.2023 16:23 Page 1



## KEÇİRİLƏN TƏLİMLƏR ŞƏXSİ HEYƏTİN DÖYÜŞ QABİLİYYƏTİNİN ARTIRILMASINDA BAŞLICA ROL OYNAYIR



Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim mərkəzində hərtərəfli şərait mövcuddur. Sözügedən mərkəzdə qoşunların hissə və bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, onların qarşısında duran tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, habelə rəhbər sənədlərin tələblərinə uyğun olaraq şəxsi heyətin döyüş təliminin təşkili məqsədilə təlim obyektləri yaradılıb. Burada Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də atəş hazırlığının ən vacib hissəsi olan praktiki atəş çalışmalarını yerinə yetirirlər.

Təlim mərkəzinin rəisinin maddi-texniki təminat işləri üzrə müavini mayor Qüdrət Əliyev hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından atəş hazırlığı, mühəndis hazırlığı, tək əsgərin döyüş təlimi, xüsusi vasitələrin tətbiqi, Daxili Qoşunların taktiki hazırlığı və taktiki hazırlıq şəhərciklərinin praktiki əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu da sözlərinə əlavə etdi. Təlim mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi.

**Bölük öz təyinatı üzrə vəzifələri uğurla yerinə yetirir**

Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim mərkəzinin yüksək döyüş hazırlığının qorunub saxlanılması buradakı təminat bölüyü həyata keçirir. Bölük komandiri kapitan Samir Cabarov əvvəlcə bölüyün üzərinə düşən vəzifələrdən danışdı. Bildirdi ki, təminat bölüyünün şəxsi heyəti qarşıya qoyulan tapşırıqları uğurla icra edir. Təlim mərkəzinin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışların təmin edilməsi, atış sahələrinin daim hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən tədris siniflərinin hazırlanması, ərazinin səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.

Kapitan S.Cabarov qarşıya qoyulan vacib tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malik olan operatorlar taqımının fəaliyyəti barədə də danışdı. Gündəlik olaraq operatorlar taqımının şəxsi heyəti ilə ixtisasına uyğun məşğələlərin keçirildiyini bildirdi.

Mayor Q.Əliyev tərəfindən də müsbət xarakterizə olunan taqımın əsas fəaliyyəti atış meydanının vaxtında hazır olmasından, hədəfqaldırıcı cihazların və idarəetmə avadanlıqlarının praktiki atəş çalışmasına hazırlanmasından, praktiki atışların keçirilməsinin təmin edilməsindən, atışdan sonra hədəfqaldırıcıların növbəti praktiki atışlar üçün hazırlanmasından, onların sazlığının qorunub saxlanılmasından, bunlarla yanaşı, elektrik təhlükəsizliyi qaydalarına riayət edilməsindən ibarətdir.

Təminat bölüyünün nümunəvi, bacarıqlı hərbi qulluqçularından əsgərlər Natiq Məmmədov, Simran Cəbrayılov və Altay Alxasovun adlarını çəkən mayor Q.Əliyev onların hər birinin fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

## TƏBLİĞAT VƏ TƏŞVİQAT İŞİNƏ, ÖZFƏALİYYƏT KOLLEKTİVLƏRİNƏ BAXIŞ MÜSABİQƏSİ KEÇİRİLİB



Avqust ayının 1-dən 31-dək Daxili Qoşunların Ali Hərbi Məktəbi, Təlim mərkəzi və hərbi hissələrində cari ilin təbliğat və təşviqat işinə, özfəaliyyət kollektivlərinə baxış müsabiqəsi keçirilib. Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmri ilə bu məqsədlə yaradılan komissiya tərəfindən bütün hərbi hissələrdə təbliğat və təşviqat işinin hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsinə təsiri, plakat və stendlərin qorunub saxlanılması və vəziyyəti, eyni zamanda özfəaliyyət kollektivlərinin fəaliyyətləri yoxlanılıb, hazırlanan proqrama əsasən onların çıxışları izlənilib, videoçəkilişlər aparılıb.

Hərbi hissələr üzrə təbliğat və təşviqat işinə baxış müsabiqəsinin nəticələrinə görə 1-ci yerə 12318, 2-ci yerə 16073, 3-cü yerə 16076 saylı hərbi hissələr, özfəaliyyət kollektivlərinə baxış müsabiqəsinin nəticələri üzrə isə 1-ci yerə 16075, 2-ci yerə 25032, 3-cü yerə isə 16077 saylı hərbi hissələr layiq görülüb.

Baxış müsabiqəsinin nəticələri nəzərə alınaraq, 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülən hərbi hissələr mükafatlandırılıb.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

## BACARIQLI RADİOTELEFONÇU

16073 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər İlkin Şahsuvarovdur. O, 2022-ci ilin oktyabr ayından 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. 2023-cü ilin fevral ayında 25032 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu müvəffəqiyyətlə bitirərək 16073 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.



Əsgər İ.Şahsuvarov 2004-cü ilin sentyabr ayının 19-da Hacıqabul rayonunda anadan olub. 2010-2021-ci illərdə Hacıqabul rayonunun Atbulaq kəndində Cavad Cavadov adına tam orta məktəbdə təhsil alıb. Uşaq yaşlarından idmanın futbol növünə maraq göstərib və sərbəst şəkildə məşğul olub.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Əsgər İ.Şahsuvarov xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16073 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## PEŞƏKARLIQ VƏ SAYIQLIQ FƏALİYYƏTİN ƏSASINI TƏŞKİL EDİR

16073 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu vacib olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.





Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısı baş çavuş Kənan Kərimov söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan baş çavuş K.Kərimov ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirib.

Baş çavuş K.Kərimov yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş İlqar Əhmədovun, çavuş İbrahim Kutlasovun və kiçik çavuş Alim Ağayevin adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını bildirdi.

Hərbi hissənin mühəndis və kimya xidmətinin rəisi mayor Fuad Ağayev istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd edib.

**kapitan Şahin Cəfərzadə**

## BİŞİRİLƏN XÖRƏKLƏRİN KEYFİYYƏTİ TƏLƏBLƏRƏ TAM CAVAB VERİR



Yüksək döyüş hazırlığını qoruyub saxlayan 17074 saylı hərbi hissənin komandanlığının xüsusi diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

Ərzaq xidmətinin rəisi kapitan Fərman Əhmədxanov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətlə hazırlanması Daxili Qoşunların və hərbi hissənin komandanlıqları tərəfindən qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bunun üçün hərbi hissədə bütün lazımi tədbirlər görülməkdədir.

Zabit şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Şəxsi heyətin qidalanması həftəlik bölgü cədvəlinə əsasən aparılır.

Kapitan F.Əhmədxanov görülən işlərdə yeməkxana rəisi baş gizir Səbuhi Ələkbərov və aşpaz-təlimatçı baş çavuş Eltun Kazımlının əməyini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Vidadi Həsənov, Qasım Feyzullayev, işçilər Xanım Canayeva və Xacay Qırıyevanın adlarını çəkərək, onların fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Xədicə Hacızadə**

## VƏZİFƏLƏRİNİ MƏSULİYYƏTLƏ YERİNƏ YETİRƏN SÜRÜCÜ

Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobil və zirehli texnikanın idarə edilməsində, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında daşınmasında peşəkar sürücülərin rolu böyükdür. Öz vəzifələrinin öhdəsindən layiqincə gələn, nizam-intizamlı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də baş əsgər Pərvin Şükürlüdür.



O, 1993-cü ilin mart ayının 25-də Biləsuvar rayonunun Amankənd kəndində doğulub. 2000-2011-ci illərdə şəhid Eyvaz Kərimov adına tam orta məktəbdə təhsil alıb. 2011-2012-ci illərdə Müdafiə Nazirliyinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki işlərdə çalışıb. 2016-cı ilin may ayında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 17074 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun atıcısı, 2017-ci ilin avqust ayının 3-də isə baş sürücü (TOMA) vəzifələrinə təyin olunub.

Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən baş sürücü həm hissə komandanlığının etimadını, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə hərbi hissə və bölmə komandanlığı tərəfindən mükafatlandırılıb.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri kapitan Seymur Mehralıyev qeyd etdi ki, baş əsgər P.Şükürlü hər gün ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. O, texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, onlara tam riayət edir.

**kapitan Xədicə Hacızadə**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000